*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 540-545*

https://doi.org/10.62837/2025.8.540

**RÜQƏYYA BƏHRUZ QIZI MURADLI**
**ADPU Cəlilabad filialının müəllimi**
**muradliruqeyya319@gmail.com**

# BƏXTİYAR VAHABZADƏNİN "ŞƏHİDLƏR" POEMASI: TARİX VƏ MÜASİRLİK

**XÜLASƏ**

Çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan Bəxtiyar Vahabzadə vətənə, xalqa ləyaqətlə xidmət edən qüdrətli söz ustasıdır. Çoxşaxəli yaradıcılıq diapazonuna malik olan şair elinə, torpağına, söykökünə bağlılığı, doğma ana dilimizə sonsuz sevgisi, millilik və vətəndaşlıq qayəsi ilə seçilən və bu qayəni aşılayan qüdrətli qələm ustası kimi ədəbiyyatımız tarixində şərəfli yer tutur. 20 yanvar və Qarabağ şəhidləri haqqında yazdığı poema və şeirlər onun vətənpərvər və millətsevər bir şair, əsl Azərbaycan vətəndaşı olmasını təsdiqləyən faktorlar kimi diqqəti çəkir. Məqalədə B.Vahabzadənin "Şəhidlər" poeması təhlil olunur, 20 yanvar hadisələri zamanı sovet imperiyasına qarşı əliyalın mübarizə aparan, vətənimizin azadlığı, müstəqilliyi uğrunda çarpışaraq şəhidlik məqamına ucalan soydaşlarımızın qəhrəmanlığından danışılır. Nəzərə çatdırılır ki, öz dərin məzmunu, vətənpərvərlik ruhu və fəlsəfi idealları ilə seçilən "Şəhidlər" poemasının ideya- məzmunu və tərbiyəvi mahiyyəti açıqlanır.

**Açar sözlər: 20 yanvar hadisələri, şəhidlik, millilik və vətəndaşlıq**

Hər bir şairin böyüklüyü, milliliyi, söykökə, milli adət- ənənələrə bağlılığı vətəndaşlıq qayəsi ilə ölçülür. Bir də hər bir şairin mütəfəkkirliyi zamanın arxasınca getməsi ilə yox, zamanı qabaqlaması ilə dəyərləndirilir. O şair bəxtiyardır ki,qırılmaz tellərlə doğma yurduna, elinə obasına, milli adət- ənənələrinə bağlı olub, bütün ədəbi fəaliyyəti boyu vətəndaşlıq qayəsi ilə yaşayır, xalqına ləyaqətlə xidmət edir. Azərbaycan xalqı qarşısında vətəndaşlıq amalına ləyaqətlə tapınan, qəlbində vətən məhəbbəti, yurd sevgisi yaşadan, ana dilimizin saflığını qoruyub saxlayan, onu sevən və millətə milli dil sevgisi aşılayan görkəmli şairlərimizdən biri də xalq şairi Bəxtiyar Vahabzadədir. Bəxtiyar Vahabzadənin adı çəkiləndə gözlərimizin önündə öncə elinə, torpağına vətəninə, xalqına, kökünə ürəkdən bağlı olan, azərbaycançılıq və türkçülük ideologiyasını aşılayan, gəncliyi milli və bəşəri dəyərlər ruhunda tərbiyələndirən, Qarabağımızın mənfur erməni işğalçılarından azad olunması uğrunda mübarizə aparıb ölümün şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın ölməz obrazlarını öz poeziyasında yaradan vətənpərvər bir şairimizin obrazı yaranır. Təsadüfi deyildir ki, dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov Bəxtiyar Vahabzadəni "çoxdan tanınmış məhşur söz ustası", "vətənpərvər", "aqil", "nəsihətverən, yolgöstərən", "təbiətcə milli" bir sənətkar, yaşadığımız zamanı şeirlərində canlandıran milli düşüncəli vətəndaş şair kimi səciyyələndirərək yazırdı:"Bizi əhatə edən aləmdə hər nə varsa, şairi dərindən- dərinə düşündürür;

xeyirlə şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtirası Bəxtiyarın fitrətindədir. Mütəfəkkir sənətkarın, ustad şairin başlıca qayəsi, uğuru da bundadır" (1, 7). Azərbaycan ədəbiyyatında şəhidlər mövzusunda çoxlu əsərlər yazılmışdır. Bu mövzuda Qabil "Mərsiyə", M.Aslan "Ağla qərənfil, ağla", N.Həsənzadə "Şəhidlər xiyabanı", X.R.Ülutürk "Azadlıq" şeirlərini qələmə almışdır. Bu əsərlərdən biri də XX əsrin sonlarında xalq şairi B.Vahabzadə tərəfindən yazılan "Şəhidlər" poemasıdır. B.Vahabzadə "Şəhidlər" poemasına qədər şəhidlərlə bağlı bir çox şeirlər də yazmışdır. "Şəhid məzarları" şeiri bu qəbildəndir. Şair burada hələ SSRİ- nin dağılmasından söhbət getməyən uzaq 1975- ci ildə şəhidliyi vətən oğlu və döyüşçüsünün idealı kimi tərənnüm edirdi.:

Şəhid məzarları... Düşmən qənimi.
Vətənin köksündə vüqarla durub.
Mənim varlığımı bir təsdiq kimi
Yurdun sinəsinə möhürlər vurub (2,165)

Ümumiyyətlə, şəhid mövzusu B.Vahabzadənin yaradıcılığında həmişə diqqət mərkəzində olmuşdur Bu poema 20 yanvar faciəsi zamanı Sovet imperiyasının məkrli siyasətinə qarşı etiraz səsini ucaldıb əliyalın mübarizə meydanına atılan, bu siyasətin günahsız qurbanlarına çevrilən, ölümün şəhidlik zirvəsinə ucalıb əbədiyyətə qovuşan vətəndaşlarımızın igidliyini bütün dünyaya nümayiş etdirən ölməz poeziya örnəyidir. "Şəhidlər" poeması öz dərin məzmunu, vətənpərvərlik ruhu və fəlsəfi ideyaları ilə seçilən bir poemadır. Poema 20 Yanvar faciəsinə həsr olunsa da, müəllif burada Bakıda həyata keçirilən qanlı hadisələri bir növ ümumiləşdirmişdir."Şəhidlər" poemasında vətənini dərin məhəbbətlə sevən, onun müstəqilliyi uğrunda çarpışan vətən oğullarımızın igidliyi diqqətə çatdırılır.

Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar,
Haqsızlığın üstündən haqqa körpü saldılar.
Vətəni sevmək üstdə günahkar saydılar,
Vətəni sevmək niyə günah olmuş, ay Allah? (1,5)

Poemanın birinci bəndində şair Allaha müraciət edərək vətəni sevməyin nə üçün günah olduğunu soruşur. Bu misralarda həmçinin şəhidlərin torpaq uğrunda canlarından keçərək haqsızlığa körpü saldıqları da qeyd olunur.

Şair "Nə istəyir bu millət?" başlığı altında verdiyi hissədə xalqın qarşısında duran çətinliklərdən söhbət açmışdır:

İstəkləri gözündə, tələbləri dilində,
Millət dənizə döndü dənizin sahilində.
Dalğalandı bu millət,
Alışıb öz oduna yandı, yandı bu millət(4,174)

Bu misralarda Azərbaycan xalqının öz taleyi, mübarizəsi və qarşısında duran çətinlik barədə dərin fikirlər səsləndirilir. "İstəkləri gözündə, tələbləri dilində" ifadəsi

millətin arzularını, ümidlərini, azadlıq və ədalət tələblərini əks etdirir. "Millət dənizə döndü dənizin sahilində" misrası isə xalqın hədsiz geniş, güclü, eyni zamanda dəyişkən və dalğalanan ruh halını simvolizə edir. Digər iki misrada isə xalqın daxilində baş verən çətinliklər və onun azadlıq uğrunda can atması vurğulanır."Təzadlar içində" başlığı ilə verilən hissədə müəllif sovet imperiyası yalanlarına uymağımızın ağır faciələrini xüsusi olaraq vurğulayır:

Yalana, riyaya nə qədər uyduq,
Biz Qızıl Orduya abidə qoyduq...
Həmin Qızıl Ordu günün birində
Bizim qanımızı tökdü...(4,175)

Sovet dövlətinin yalandan veriyi şirin vədlərə inanmağımız sonralar bizim milli faciələrimizə gətirib çıxartdı, bizə Qarabağ acısını yaşatdı.

Şənbə gecəsindən yazan müəllif düşmən üçün haqq, həqiqət, ədalət, gerçəklik və s. bunların heç birinin olmadığını qeyd edir.

O şənbə gecəsi, o məlum gecə
Birdən üzə çıxdı bu fərq gör necə?!
Ədalət də, gerçək də,
Vallah yoxdu o gecə. (4,175)

B. Vahabzadə məlum günün səhərisi heç nə olmamış kimi Bakı küçələrinin yuyulmasını təsvir etsə, cəlladların qanlı vicdanlarının heç vaxt yuyulmayacağını bu misrada ifadə edir:

Ertəsi... Bakının küçələrindən
Yudular millətin qızıl qanını.
Yuya biləcəkmi o cəllad, görən,
Qanla ləkələnmiş öz vicdanını? (4,175)

Bəxtiyar Vahabzadə üçün şəhidlik sadəcə fiziki ölüm deyil, milli düşüncənin, azadlıq arzularının zirvəsidir. Şəhid obrazı burada ümumiləşmiş simvoldur-o, adi bir insan yox, xalqın bütöv ruhudur. Poemada qəhrəmanlıq , yalnız cəbhədə silahlanmaq deyil, həm də mənəvi direniş, ruh yüksəkliyi kimi təqdim olunur. "Eşq olsun sizə" başlığı altında müəllif bu fikirləri belə mənalandırır.

Yalın əllər ilə tanklar üstünə
Atılan cavanlar, eşq olsun sizə! (4,175)

B. Vahabzadə poemanın ikinci hissəsinin başlanğıcında insanların şəhidlər xiyabanına gəlməsini, onların ağrı- acılarını təsvir edir

Qızıl qərənfillər əllərdə min- min,
Şəhidlər önündə bir an dondular. (6, 288)

Şəhidlər xiyabanına edilən səfər və orada yaşanan duyğular oxucuya faciənin miqyasını hiss etdirir. Bu baxımdan əsər təkcə tarixi hadisənin bədii təsviri deyil, həm də milli yaddaşın bir parçasıdır.

Şəhidlər xiyabanı...

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 540-545*

Dilə gəlir məzarlar:
-Axı biz neyləmişdik? (6, 290)

Düşmənə müraciətlə yazılan "Mənim günahlarım" başlıqlı hissədə "nədir günahım" deyərək fəryad edən obraza rast gəlirik.

İstədin daşınan bol sərvətindən ,
Bir ovuc, bir qırıq sənə pay düşə.
Sən bezib, usanıb əsarətindən
İstədin, bu dünya bir az dəyişə.
Budur günahın! (6, 293)

"Şəhidlər" poemasında şəhidlərin bir- birinə bənzədiyi qeyd olunur. Göstərilir ki, onlar eyni amal- vətənimizin azadlığı, müstəqilliyi uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalmışlar

Şəhidlərin hamısı bənzəyir bir- birinə.
Bir bax, qəbirlərinə!
Hamısı qıpqırmızı qərənfilə bələnmiş,
Səbəb birdir, əməl bir, hədəf birdir, hədə bir.
Onları bu dünyadan aparan güllə də bir. (6,298)

Poemada 20 Yanvar qəhrəmanlarının bəzilərinin adı da çəkilmişdir. Məsələn, İlham- Fərizə, Sürəyya Lətif qızı, Larisa, Baba müəllim, Aleksandr Marxevka və b. Həmçinin poemada onlara aid hissələr də verilmişdir. Bunlardan biri də İlham- Fərizə cütlüyüdür. Hər ikisi 20 Yanvar günü şəhid olmuşdur.

İlhamı gözlədi, İlham gəlmədi,
Dönük taleyi ilə durdu üz- üzə.
Qalıb küçə ilə ev arasında,
Gecəni sübhədək o dincəlmədi... (6,301)

Poemada bu hissəsində öz həyat yoldaşını gözləyən bir qadının keçirdiyi istirablar, ağrı və acılara yer verilmişdir. Əsərdə Larisaya aid verilən hissədə isə balaca bir körpənin qandonduran taleyi əks olunmuşdur.

On üç yaşlı körpə bala.
Yazıq anan necə dözsün
Bu kədərə, bu məlala? (6,304)

B.Vahabzadə altı bəndlikbir şeir parçasında xalqın ağrı- acılarını açıq şəkildə ortaya qoymuşdur.

Qatil gülləsinə qurban gedirkən
Gözünü sabaha dikdi şəhidlər. (3,100)

Şair bu misralarda Vətən yolunda öz canlarından keçən qəhrəmanların əbədi xatirəsini göz önündə canlandırmışdır. Şəhidlərin qəhrəmanlığından, günahsız yerə qətlə yetirilməsindən danışılan əsərdə nikbin ruh, gələcəyə inam var. Şair inanır ki, şəhidlərin qanı yerdə qalmayacaq, xalqın iğid övladları mübarizəni davam etdirəcək, üçrəngli bayrağı enməyə qoymayacaqdır (4, 181)

Gedən oğulların, axan qanların
Əvəzi su səpdi yanan qəlbimə
O şənbə gecəsi doğulanların
Onundan doqquzu oğlanmış demə.

Şəhidlər ölərkən xəstəxanalarda doğulan balaca körpələri də müəllif poemada qeyd edərək, sanki dərdlərini onların vasitəsilə unudacağına inanırdı. 20 Yanvar və Qarabağ döyüşləri Şəhidlərinin intiqamının alınması B.Vahabzadənin nə qədər haqlı olduğunu bir daha təsdiqlədi.

Ədəbiyyat

1. Aytmatov Ç.”Yaradıbdır inam məni, Mən inamın övladıyam// B.Vahabzadə. Seçilmiş əsərləri. 2 cilddə . I cild. Bakı: “Öndər” nəşriyyatı, 2004, 328 səh
2. Cəfərov N, Həbibbəyli İ, Əliyeva N, Bakıxanova A. Ümumtəhsil məktəblərinin 11- ci sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı,2014, 173 səh.
3. Əliyev S, Həsənov B, Səfərov Ə, Quliyev Ə. Ümumtəhsil məktəblərinin 5- ci sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı,2024, 207 səh
4. Həbibbəyli İ, Əliyev S, Həsənov B, Mustafazadə A. Ümumtəhsil məktəblərinin 11- ci sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı,2018, 207 səh
5. Vahabzadə B. Şəhidlər: poema// Azərbaycan harayı.-Bakı. Respublika xatirə kitabı redaksiyası, 2002. 60 səh
6. Vahabzadə B. Seçilmiş əsərləri. 2 cilddə . II cild. Bakı: “Öndər” nəşriyyatı, 2004, 321 səh

**RUQEYYA BEHRUZ GIZI MURADLI**
Teacher of ADPU Jalilabad branch

## BAKHTIYAR VAHABZADE'S POEM "MARTYRS": HISTORY AND MODERNITY

## SUMMARY

One of the prominent representatives of contemporary Azerbaijani poetry,Bakhtiyar Vahabzadeh is a powerful wordsmith who serves the homeland and the people with dignity. The poet, who has a diverse creative range, occupies an honorable place in the history of our literature as a powerful penman distinguished by his devotion to his homeland, land, roots, endless love for our native mother tongue, the goal of nationality and citizenship, and instilling this goal. The poems and poems he wrote about January 20 and the martyrs of Karabakh attract attention as factors confirming that he is a patriotic and nationalistic poet,a true citizen of Azerbaijan.The article analyzes B. Vahabzadeh's poem "Martyrs",talks about the heroism of our compatriots who fought hand-to-hand against the Soviet empire during the January 20 events, fought for the freedom and independence of our homeland and rose to the position of martyrs.It is brought to your attention that the ideological content and educational essence of the poem "Martyrs",which is distinguished by its deep content, patriotic spirit,and philosophical ideals,isrevealed.

**Keywords: January 20 events, martyrdom, nationality and citizenship**

**РУГЕЙЯ БАХРУЗ ГЫЗЫ МУРАДЛИ**
**Преподаватель Джалилабадского филиала АДПУ**

**Поэма Бахтияра Вагабзаде «Мученики»: история и современность**

**Резюме**

Один из ярких представителей современной азербайджанской поэзии,Бахтияр Вагабзаде – сильный мастер слова, достойно служащий Родине и народу. Поэт, обладающий многогранным творческим диапазоном,отличается преданностью Родине, земле, корням, бесконечной любовью к родному языку, идеалам национальности и гражданства и занимает почетное место в истории нашей литературы как сильный литературный деятель, воплощающий эту цель. Стихи и поэмы, написанные им о 20 Января и шехидах Карабаха, привлекают внимание как факторы, подтверждающие его патриотизм и национализм, как истинного гражданина Азербайджана. В статье анализируется поэма Б. Вагабзаде «Шехиды», повествующая о героизме наших соотечественников, сражавшихся врукопашную с Советской империей во время событий 20 января и ставших шехидами в борьбе за свободу и независимость нашей Родины.Отмечается, что раскрывается идейное содержание и воспитательная суть поэмы «Шехиды»,отличающейся глубоким содержанием, патриотическим духом и философскими идеалами.

**Ключевые слова: события 20 января, мученичество, национальность и гражданство**

**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**Yədulla Dadaşlı tərəfindən çapa tövsiyə olunmuşdur.**